*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 dekabr 2018-ci il № 98 (2314) Qiyməti 25 qəpik


## Rəsmi xronika

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul edib.*

*Görüşdə Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələyə də toxunub. "Əlbəttə, biz bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələləri də müzakirə edəcəyik. Ümid edirik ki, 2019-cu il nizamlanma prosesinə yeni impuls verəcək. Əlbəttə ki, münaqişənin həlli ilə bağlı ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Rusiyanın səylərinə ümid edirik".*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul edib.*

*Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Türkiyənin hər zaman birmənalı şəkildə Azərbaycanın yanında olduğunu və Türkiyənin bu məsələ ilə bağlı verdiyi son açıqlamaları məmnunluq hissi ilə qeyd etdi, qardaş ölkənin bu mövqeyinə görə minnətdarlığını bildirdi.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də İran İslam Respublikasının İnformasiya və Milli Təhlükəsizlik naziri Seyid Mahmud Ələvini qəbul edib.*

*Görüş çərçivəsində xalqlarımız arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu deyən Prezident İlham Əliyev bu gün bizim dost və qardaş iki ölkə kimi əlaqələrimizin genişləndiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin ikitərəfli əsasda imzaladığı sənədlərin uğurla icra edildiyini bildirdi. Prezident İlham Əliyev İran İslam Respublikasının İnformasiya və Milli Təhlükəsizlik naziri Seyid Mahmud Ələvinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.*

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan:

# Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir

### Prezident İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib



*Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Prezident İlham Əliyevə raport verdilər.

Burada ümumilikdə səkkiz bina tikilib. Binaların həyətində uşaq əyləncə meydançası, sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət guşələri yaradılıb.

Dövlətimizin başçısı mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov Prezident İlham Əliyevə mənzillərdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci ildə imzaladığı Fərmana əsasən, bu binalardan ümumi sahəsi 37 min kvadratmetrdən çox olan 394 mənzil hərbi qulluqçular üçün ayrılıb. Onların 3-ü birotaqlı, 192-si ikiotaqlı, 185-i üçotaqlı, 14-ü isə dördotaqlıdır. Daimi su, qaz, elektrik enerjisi ilə təmin olunan mənzillərə telefon və internet xətti də çəkilib. İstilik və isti su təchizatını təmin etmək məqsədilə hər bir mənzil kombi sistemi ilə təchiz olunub.

Ölkəmizin iqtisadi potensialı gücləndikcə Azərbaycanın hərbi qüdrətinin artırılması istiqamətində ardıcıl və mühüm işlər görülür, ordu quruculuğu sahəsində tədbirlər uğurla davam etdirilir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi və ordumuzun maddi-texniki bazasının müasirləşdirilməsi baxımından tarixi əhəmiyyətli işlər görülüb. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli, onların əmək haqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, həyatını Vətəni müdafiə etmək kimi şərəfli vəzifəyə həsr edən hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Silahlı Qüvvələrdə 1992-ci ildən etibarən 20 il və daha çox qüsursuz xidmət etmiş 1279 hərbi qulluqçuya Azərbaycan Prezidentinin Fərmanı ilə indiyədək dövlət tərəfindən Bakıda 629, Gəncədə 632, Naxçıvanda 18 mənzil verilib.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

## Ali Baş Komandan:

# Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir

(Əvvəli 1-ci səhifədə)

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev hərbçilər və onların ailə üzvləri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

- Əziz hərbçilər, əziz dostlar.

Bu gün hərbçilərin həyatında çox əlamətdar bir gündür. Bu gözəl binada 394 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilir. Mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Arzu edirəm ki, bu gözəl binada rahat yaşayasınız.

Bilirsiniz ki, hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün bir neçə il bundan əvvəl mənim tərəfimdən müvafiq Fərman imzalanmışdır. Fərmana əsasən, qüsursuz xidmət göstərən hərbi qulluqçuların ailələrinə dövlət tərəfindən mənzillər verilir. Bu günə qədər 1279 hərbçi ailəsinə dövlət tərəfindən mənzillər verilib. Mənzillərin hamısı çox gözəldir. Mən bu binaların açılışlarında şəxsən iştirak etmişəm və bu gün də tanış olduğum mənzillər çox rahat, geniş və təmirli mənzillərdir. Azərbaycan nadir ölkələrdəndir ki, belə proqram icra edilir. Bu, bir daha dövlətimizin hərbi qulluqçulara göstərdiyi böyük diqqətin təzahürüdür, bunun nümunəsidir.





Onu da qeyd etməliyəm ki, hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Son illərdə bir çox hərbi şəhərciklərimizdə əsaslı təmir-bərpa işləri aparılmışdır. Bir çox şəhərciklər yenidən tikilmişdir. Hərbçilərin, əsgər və zabitlərimizin xidmət şəraiti də böyük dərəcədə yaxşılaşıb. Bu gün bizim hərbi şəhərciklərimizin, hərbi hissələrimizin, hərbi bazalarımızın təxminən 75-80 faizi standartlara tam cavab verir. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hərbi hissələrin təmiri nəzərdə tutulur. Dövlət bu məqsədlər üçün vəsait ayırır və bundan sonra da ayıracaqdır.

Onu da bildirməliyəm ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün də son illərdə minlərlə ev və mənzil tikilib, təhvil verilmişdir. Təkcə bu il 626 şəhid ailəsinə, Qarabağ müharibəsi əlillərinə dövlət tərəfindən mənzillər verilib və gələn il ən azı 800 mənzil veriləcəkdir. Bu kateqoriyadan olan insanlar, eyni zamanda, dövlət tərəfindən minik avtomobilləri ilə təmin olunurlar. Onlara minlərlə avtomaşın verilmişdir.

Müharibədən əziyyət çəkən soydaşlarımızın da problemləri öz həllini tapır. Bu il 5800 köçkün ailəsi yeni evlərlə, mənzillərlə təmin edilib. Bu, son illərdə rekord göstəricidir. Biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Siz onu da bilirsiniz ki, builki prezident seçkilərindən dərhal sonra imzaladığım birinci Fərman şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. Vərəsələrə dövlət tərəfindən 11 min manat vəsait verilməsi nəzərdə tutulub. Artıq bu vəsaitin verilməsi prosesi başlamışdır. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq. Hazırda siyahılar dəqiqləşdirilir və beləliklə, bu proqramın icrası nəticəsində minlərlə ailə öz maddi vəziyyətini yaxşılaşdıracaq. Bu, dövlətin öz şəhidlərinin qəhrəmanlığına görə göstərdiyi diqqətdir, onların ailələrinə göstərdiyi qayğıdır. Ancaq təbii ki, hər sahədə olduğu kimi, bu sahədə də ədalət prinsipi əsas olmalıdır.

Azərbaycanda ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçmişdir. Biz strateji yüksəklikləri əldə etdik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər.

Əlbəttə, bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir. Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir.

Ordu quruculuğu prosesində, əlbəttə ki, hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Bax, bu gözəl binada 400-ə yaxın hərbçi ailəsinin yaşaması dediyim sözlərin bariz nümunəsidir, təsdiqidir. Mən bu gözəl binada yaşayacaq bütün hərbçiləri bu hadisə münasibətilə bir daha təbrik edirəm. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sağ olun.





* * *

Prezident İlham Əliyev hərbçilərin bir qrupuna mənzillərin orderlərini təqdim etdi.

Ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Rafiq Quliyev öz adından və hərbçi yoldaşları adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Cənab Prezident, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində biz hərbçilərə bəxş etdiyiniz bu sevincə görə bütün hərbçilər və onların ailə üzvləri adından Sizə dərin minnətdarlığımızı bildiririk. Əmin ola bilərsiniz ki, bundan sonra da Hərbi anda sadiqik və Sizin bütün əmrlərinizi yerinə yetirməyə hazırıq.

Prezident İlham Əliyev: - Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

Prezident İlham Əliyev hərbi qulluqçuların ailə üzvləri ilə söhbət etdi.

Mehdi Hüseynzadə - 100

# Sloveniyada Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi münasibətilə tədbirlər keçirilib

*Dekabrın 13-14-də Sloveniyada Sovet İttifaqı və Sloveniya qəhrəmanı, Azərbaycanın igid oğlu Mehdi (Mixaylo) Hüseynzadənin (1918-1944) anadan olmasının 100-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir. Bu məqsədlə Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Azərbaycanın Avstriya, Sloveniya və Slovakiyadakı səfiri Qalib İsrafilov, Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanov, Milli Məclisin deputatı Rauf Əliyev, Oğuz rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov və səfirliyin əməkdaşlarından ibarət nümayəndə heyəti bu ölkədə səfərdədirlər. Nümayəndə heyətinin tərkibinə, həmçinin Diasporla İş üzrə Dövlət Komitəsinin, müxtəlif qeyri-hökumət təşkilatlarının, Avstriya və Sloveniyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının fəalları da daxildir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfərin birinci günü Azərbaycan nümayəndə heyətinin üzvləri Sloveniyanın Maribor şəhərində müharibə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi üçün salınan Dobrava memorial park kompleksində Xocalı şəhidləri ilə bağlı xatirə lövhəsini ziyarət ediblər.

Azərbaycan-Sloveniya Dostluq Assosiasiyasının üzvlərinin də iştirak etdikləri mərasimdə nümayəndə heyəti Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş abidənin önünə əklil qoyub.

Dobrava memorial parkının direktoru, Avropada Əlamətdar Qəbiristanlıqlar Assosiasiyasının prezidenti Lidiya Pliberşek park və buradakı abidələr haqqında məlumat verib. Bildirilib ki, Xocalıda qəddarlıqla qətlə yetirilən günahsız insanların xatirəsinə həsr olunmuş bu lövhə dinc əhaliyə qarşı bəşəri cinayətlərin və müharibələrin pislənməsinə, humanizm və sülh dəyərlərinin gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Sonra nümayəndə heyəti Mehdi Hüseynzadənin Maribor şəhərindəki general Rudolf Mayster adına xatirə parkında ucaldılmış abidəsini ziyarət edib. Hərbi kvartetin ifasında hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra nümayəndə heyətinin üzvləri abidə önünə əklil qoyub, qəhrəmanın xatirəsinə ehtiramlarını bildiriblər.

Səfir Qalib İsrafilov mərasimdə çıxış edərək deyib ki, Azərbaycan və sloven xalqlarının qəhrəman oğlu Mehdi Hüseynzadə fenomeni iki ölkə arasında dostluq əlaqələrinin inkişafında mühüm əhəmiyyət daşıyır. Cəmi 26 il yaşamasına baxmayaraq, Mixaylonun misilsiz şücaətləri onu indiki və gələcək nəsillər üçün örnəyə çevirib.

Maribor şəhərinin vitse-meri Saşa Pelko vurğulayıb ki, Birinci Dünya müharibəsinin başa çatdığı 1918-ci ildə dünyaya göz açan Mehdi Hüseynzadə sülhün və əmin-amanlığın dünyada yenidən bərqərar olması uğrunda vuruşub. O, bu abidənin ucaldılmasında göstərdiyi dəstəyə görə ölkəmizin səfirliyinə və Azərbaycan-Sloveniya Dostluq Assosiasiyasına təşəkkürünü bildirib.

* * *

Dekabrın 14-də anım tədbirləri Mehdi Hüseynzadənin döyüş yolu keçdiyi və həlak olduğu Nova Qoritsa regionunda davam etdirilib. Nümayəndə heyəti yerli sakinlər və müharibə veteranlarının iştirakı ilə Şempas kəndində Azərbaycanın qəhrəman oğlunun şərəfinə ucaldılmış abidə önünə əklil qoyub və onun xatirəsinə yaradılmış muzeylə tanış olub. Məlumat verilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə 2007-ci ildə məşhur kəşfiyyatçının bu kənddə abidəsi ucaldılıb, sonra isə onun xatirəsinə muzey yaradılıb. Muzeydəki o dövrə aid fotolar, Mehdi Hüseynzadənin döyüş yoldaşlarının təqdim etdikləri qiymətli eksponatlar bu muzeyə gələnlərdə qəhrəmanın həyatı və keçdiyi döyüş yolu haqqında doğun təəssürat yaradır.

Daha sonra nümayəndə heyəti Mixaylonun 1944-cü ilin noyabrında alman nasistləri ilə ağır döyüşdən sonra həlak olduğu Vitovlye kəndinə baş çəkib, onun həlak olduğu ərazidə yerləşən xatirə lövhəsi önündə



əklil qoyub, qəhrəmanın xatirəsini yad edib.

Həmin gün nümayəndə heyəti dövlət rəsmiləri, yerli əhali və veteran təşkilatlarının iştirakı ilə Çepovan məzarlığında Mehdi Hüseynzadənin məzarını ziyarət edib.

Həmin gün Çepovan kəndinin Mədəniyyət Evində Mehdi Hüseynzadənin anadan olmasının 100 illiyi münasibətilə tədbir keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycanın və Sloveniyanın Dövlət himnləri səsləndirilib.

Çıxış edən Nova Qoritsa Universitetinin prorektoru Mladen Franko əfsanəvi kəşfiyyatçı Mixaylonun həyat və döyüş yoluna nəzər salıb, onun Adriatik dənizi sahillərindəki partizan fəaliyyətinə xüsusi diqqət ayırıb. Qeyd edilib ki, Mehdi Hüseynzadə İtaliyanın Udine regionunda alman əsirliyindən qaçaraq partizan hərəkatına qoşulub və Sloveniyanın Primorsk regionunda alman faşizminə qarşı mübarizə aparıb. Yuqoslaviya Xalq Azadlıq Ordusunun IX korpusu komandanlığının tapşırığı ilə Mixaylo Qradnik adına 31-ci diviziyanın qərargahı yanında kəşfiyyat-təxribat qrupu yaradıb və ona başçılıq edib. Onun qəhrəmanlığı, həyata keçirdiyi əməliyyatlar onu yerli əhalinin sevimlisinə, almanların isə qorxunc yuxusuna çevirib. 1944-cü il noyabrın 2-də Nova Qoritsa yaxınlığında yerləşən Solkan qəsəbəsindəki əməliyyatdan geri dönən Mixaylo Vitovlye kəndində alman hərbçiləri ilə döyüşdə qəhrəmancasına həlak olub. Əvvəlcə yaxınlıqdakı Şempas kəndində dəfn edilən Mixaylonun nəşi noyabrın 19-da silahdaşları və yerli əhali tərəfindən Çepovan məzarlığındakı qardaşlıq məzarına köçürülüb.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev çıxışında Mixaylonun xatirəsini əziz tutduğuna görə Sloveniya dövlətinə və xalqına Azərbaycan xalqı, xüsusilə də Müdafiə Nazirliyinin rəhbərliyi adından təşəkkür edib. Qeyd edib ki, Sloveniyada Mehdi Hüseynzadənin memorial muzeyinin fəaliyyət göstərməsi, abidəsinə daim diqqət yetirilməsi xalqımız üçün qürurvericidir. Onun qısa lakin şərəfli ömür yolu və qəhrəmanlığı bugünkü gənclər üçün əsl nümunədir. Qəhrəmanların təbliğ edilməsi və şərəfli hərb tariximizin öyrənilməsi ölkələrimizin müstəqilliyinin sarsılmaz olduğuna bir işarədir.






Nazir müavini bildirib ki, Mixaylo sloveniyalı silahdaşları ilə birgə həm nasistlərə qarşı mübarizə aparan partizan, həm də Sloveniya milli-azadlıq hərəkatının sadiq əsgəri olub. Azərbaycan xalqı kimi, sloven xalqı da Mehdi Hüseynzadəni öz qəhrəmanı sayır və xatirəsini uca tutur.

Xüsusilə qeyd edilib ki, sovetlər dövründə Mehdi Hüseynzadənin adının əbədiləşdirilməsinin təşəbbüskarı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev olub. Bu gün də Azərbaycan Prezidenti İlham Əliyev bu ənənəni davam etdirir. Sloveniyanın Novo Qoritsa şəhərində Mehdi Hüseynzadənin xatirəsinə ucaldılmış abidənin açılışında Azərbaycan və Sloveniya dövlət başçılarının iştirakı xalqlarımızın tarixi qəhrəmanlara verdiyi ən yüksək qiymətdir. Bu abidə istər Sloveniya, istərsə də Azərbaycan nümayəndə heyətləri tərəfindən daim ziyarət edilir, burada Mehdi Hüseynzadənin xatirəsinə həsr olunan tədbirlər keçirilir.

Qeyd edilib ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən, bu il dövlət səviyyəsində Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş bir sıra tədbirlər keçirilib.

Sloveniya parlamentinin yuxarı palatasının (Dövlət Şurası) sədri Aloys Kovştsa Azərbaycan və Sloveniya arasında möhkəm dostluq əlaqələrinin mövcud olduğunu qeyd edərək, Mehdi Hüseynzadə kimi qəhrəman oğula görə Azərbaycan xalqına minnətdarlığını ifadə edib. Qeyd edilib ki, müharibələrdə əsgərlər şücaət göstərirlər və qəhrəmancasına həyatlarından keçirlər. Dünyanın uzaq bir ölkəsində gəlmiş Mixaylo Sloveniyanın azad olunmasında iştirak edib və sloven xalqı uğrunda gənc ömrünü fəda verib. O, həmçinin bildirib ki, Azərbaycan və sloven xalqları arasında sıx bağlılıq və dostluq əlaqələri var, bu bağın möhkəmliyində Mixaylo fenomeni də mühüm rol oynayır.

Tədbirin ikinci hissəsində yerli musiqi qrupları, məktəblilər və sənətçilər bədii proqramla çıxış ediblər.

AZƏRBAYCAN ORDUSU

*Ön xətdən reportaj*

# "Döyüş əmri gözləyirik!"



## Ali Baş Komandan İlham ƏLİYEV:

*Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Son illərin hadisələri bunu əyani şəkildə göstərir. Deyə bilərəm ki, bu il də Naxçıvan istiqamətində Ermənistan-Azərbaycan sərhədi sahəsində ordumuzun uğurlu əməliyyatı nəticəsində 11 min hektar torpaq tam nəzarətimizə keçmişdir. Biz strateji yüksəklikləri əldə etdik. Bu yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisində strateji yollara, kommunikasiyalara tam nəzarət edə bilək. Həm aprel döyüşləri, həm də uğurlu Naxçıvan əməliyyatı bir daha onu göstərir ki, ordumuz peşəkardır, döyüş qabiliyyəti yüksək səviyyədədir. Ordumuzda yüksək ruh mövcuddur və ordumuz istənilən vəzifəni icra edə bilər.*

Hərbi xidmətə təzə başladığım vaxtlar idi. Gənc əsgərlə komandirinin arasında keçən dialoq heç vaxt yaddaşımdan silinməyəcək. Komandir əsgərdən soruşdu: "Sən Vətən üçün nə edə bilərsən?". Əsgər "Mən Vətən üçün canımdan keçməyə də hazıram!", - dedi. Zabit isə "Vətənə sənin düşməni məğlub etməyin lazımdı, sənin qazanacağın qələbə lazımdı", - dedi. Həmin əsgər də digərləri kimi komandirlərinin öyrətdiklərini dərindən mənimsəyirdi. Dərslərdə yaranan sualları məşğələlərdən sonra da cavablandırmaları üçün komandirlərinə müraciət edirdi. Hər mövzunun bütün incəlikləri ilə öyrənirdi. Əsgər başa düşmüşdü ki, "Vətənpərvərəm" deməklə iş bitmir.

Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi də yaradır, inam hissini gücləndirir. Bizlər də hərbçi olaraq daima xidmətə gələn Vətən övladlarının hərbi biliklərinin artırılmasında əlimizdən gələni əsirgəmirik.

"N" hərbi hissəsində polkovnik-leytenant Rüstəm Məmmədov şəxsi heyətin döyüş əzminin, mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksək olduğunu bildirir.

- Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuzun maddi-texniki təminatı yüksəlib. Şəxsi heyət müasir texnika və silahlarla təchiz olunub, bu proses uğurla davam etməkdədir, - deyə zabit söhbətə başlayır. - Ancaq unutmamalıyıq ki, ordu qurucuğunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da əsas şərtdir. Ordu potensialına görə güclü ola bilər, lakin şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti yetərincə deyilsə, o ordu məğlubiyyətə düçardır. Biz komandir heyətinin əsas vəzifəsi orduda xidmət edənlərin döyüş qabiliyyətini artırmaq, onları işğal olunan torpaqlarımızı düşməndən azad etməyə hazırlamaqdır. Bunun üçün, sadəcə, əsgərlərin məşğələlərdə müvəffəqiyyətlər əldə etməsi, yüksək nizam-intizamlı olması yetmir. Onların asudə vaxtlarının səmərəli keçməsi vacib amillərdəndir. Bu səbəbdən mütəmadi olaraq bölmələrdə müxtəlif yarış və viktorinalar keçirilir. Şəxsi heyətin dünyagörüşünün artmasında kitablar, qəzet və jurnallar böyük rol oynayır. Bölüyün dayaq məntəqəsi ilə yanaşı, döyüş mövqelərimizdə də Vətənimizin şanlı tarixini əhatə edən, vətənpərvərliklə, müasir silah və texnikalarla bağlı materialları əhatə edən guşələr düzəldilib. Əsgərlərimiz boş vaxtlarda mütaliə edirlər. Onlar yaxşı bilirlər ki, güclü ordunun savadlı əsgəri olmalıdır. Bununla yanaşı, şəxsi heyətlə iş üzrə komandir müavinləri mütəmadi olaraq əsgərlərə adlarını qəhrəmanlıqları, şücaəti, igidlikləri ilə tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazdıran Mübarizin, Samidin, Raqufun ... və digər oğullarımızın həyat yolundan danışırlar. Belə oğullarımızı yaxından tanımaq və gənc nəslə tanıtmaq bizlərin başlıca vəzifəsidir. Onu da qeyd edim ki, hərbi hissəmizdə xidmət edən şəxsi heyət müəyyən vaxtlarda rayon mərkəzindəki Heydər Əliyev Mərkəzinə gedirlər, Ulu Öndərin həyatının çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallarla, fotoşəkillərlə, tarixi sənədlər və eksponatlarla tanış olurlar.



Leytenant Nəsimi Həsənli ilə uzun illərin dostu kimi salamlaşırıq. Öyrənirik ki, Qarabağ müharibəsi hər bir azərbaycanlı ailəsində iz qoyduğu kimi, Nəsimigildən də yan keçməyib. Onun dayıları Qarabağ müharibəsinin iştirakçısı olublar. Dayısı Anar Nəzərov Qarabağ döyüşlərində itkin düşüb. Uşaq vaxtlarından Nəsimi dayısının, şəhid olan qəhrəman oğul və qızlarımızın qisasını almaq üçün hərbçi olmaq qərarına gəlib. İstəyini valideynlərinə bildirib. Onlar yeniyetməni Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təhsil almağı üçün yönəldiblər.

Leytenant Nəsimi Həsənli deyir ki, əsgərlərimiz döyüş postunda həmişə ayıq-sayıq dayanırlar. "Düşmənin istənilən təxribatının qarşısını almağa hər an hazırdırlar. Düşmənlə təmas xəttində xidmət etmək hər birimizin məsuliyyətini daha da artırır. Əsgərlərimiz xidmətlərini Vətənə məhəbbət, düşmənə nifrət devizi altında təşkil edirlər. Erməni əsgərləri hər an atəşkəs rejimini poza bilərlər. Bu səbəbdən həmişə döyüş mövqeyində ayıq-sayıq dayanaraq, düşmənin təxribatlarına layiqli cavab verməyə hazırıq. İşğalçı dövlət də yaxşı bilir ki, qarşısında torpaqlarını azad etməyə qadir olan cəsur, mərd, məğrur Azərbaycan əsgəri dayanıb. Biz hər zaman döyüş hazırlığımızı artırırıq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elnur Musayev Milli Qəhrəmanımız Çingiz Qurbanovun bu yerlərdə xidmət etdiyini vurğulayır. "Bu yerlərin hər qarışında qəhrəmanımızın xatirələri yaşayır. Hər birimiz çalışırıq ki, Çingizin adına layiq xidmət edək. O, qəhrəmanlığı ilə düşmənə Azərbaycan əsgərinin nəyə qadir olduğunu bir daha sübut etdi. Növbəyə gedən şəxsi heyəti təlimatlandıranda Milli Qəhrəmanımızın şücaətindən, qorxmazlığından danışıram. Onlar da vəzifələrinin öhdəsindən layiqincə gəlmək üçün komandirlərinin öyrətdiklərini dərindən mənimsəyirlər. Xidmət etdiyimiz bölmə çətin relyefdə yerləşsə də, təbii çətinliklər bizləri qorxutmur. Hərtərəfli sosial-məişət şəraiti ilə təmin olunmuşuq. Yaradılan bu cür nümunəvi şəraitdə göz qırpmadan Vətənimizi qoruyuruq. Bu səbəbdən düşmən təxribat törətməyə cəsarət etməz."



Hərbi xidmətə Biləsuvar rayonundan çağırılan əsgər Ziyaddin Xanəliyev xidməti dövründə qazandığı dostlarından söz açır: "Əsgərlik dostu ömür dostudur, - deyirlər. Rövşən Əliyev və Rəşid Şəmilov kimi dostlarım var. Onlarla dostluğum daimi olacaq. Ən böyük xoşbəxtlik torpaqlarımızın azad olunduğu Böyük Qələbə gününün xidmətimiz müddətinə düşməsi olardı. Mən də dostlarımla çiyin-çiyinə işğalçılara qarşı döyüşərdim, doğma Qarabağımızın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edərdim."

Hərbi xidmətə Astara rayonundan çağırılan əsgər Rövşən Əliyev əmisi Arif Rzayevin Qarabağ döyüşlərində itkin düşdüyünü bildirir. "Atam həmişə əmimdən, onun döyüş yoldaşlarından, el-obalarından didərgin düşən soydaşlarımızdan danışardı. Mən də Vətənin müdafiəçilərinin sıralarına daxil olmaq istəyirdim. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən zəng gələndə çox sevindim. Məni hərbi xidmətə yola salan atam xeyir-dua verərək, həmişə yaxşı xəbərlərimi eşitmək istədiyini bidirdi. Mən əlimdən gələn hər şeyi edirəm, hər an Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik. İnanıram ki, üçrəngli bayrağımızı Şuşada, Laçında, Kəlbəcərdə və digər işğal olunmuş torpaqlarımızda dalğalandıracağımız günə az qalıb".

Döyüş növbəsini təhvil verən əsgər Rəşid Şəmilov hərbi xidmətə Bərdə rayonundan çağırılıb. Əsgər fiziki hazırlıqlarından danışaraq qeyd edir ki, günün nizam qaydasına uyğun olaraq hər səhər və axşam silahlı, silahsız və ikilikdə kompleks çalışmalar yerinə yetiririk. İdmanla məşğul olmaq bizim gümrah, yüksək əhval-ruhiyyədə, enerjili olmağımızı, həmçinin, xəstəliklərə qarşı müqavimətimizi artırır. Ermənilər güclü, mərd, cəsur və vətənpərvər Azərbaycan əsgərinin qarşısında dayana bilməyəcəklər".

İzzət Həlimov və digər əsgərlər də döyüş hazırlıqlarının yüksək səviyyədə olmasından, asudə vaxtlarının maraqlı və səmərəli keçməsindən, bölmədə müxtəlif növ yarışların keçirilməsindən, vətənpərvərlik mövzusunda kinofilmlərin nümayiş etdirilməsindən danışırlar.

Bir daha əmin oluram ki, Azərbaycan əsgəri Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözləyir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

### Ordu quruculuğu

# Ordumuz qürurumuzdur



Güclü, qüdrətli ordusu olan hər bir dövlətin müstəqilliyi də sarsılmaz və əbədidir. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin rəhbərliyi ilə milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində Naxçıvanda başlanılıb. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçiləndən cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi yaradıldı. O dövrdə ümummilli liderimizin muxtar respublikamızda ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin də başlanğıcı oldu. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi, uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasının Ermənistan Respublikası ilə həmsərhəd əraziləri nəzarət altına götürüldü, etibarlı müdafiə sistemi yaradıldı. 15 sentyabr 1992-ci ildə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradıldı və 1992-ci il oktyabrın 9-da Naxçıvanda ilk dəfə hərbi parad keçirildi. 21 may 1995-ci ildə həmin briqada motoatıcı diviziyaya, 8 dekabr 1998-ci ildə Ordu Korpusuna, 18 dekabr 2013-cü ildə isə Əlahiddə Ümumqoşun Orduya çevrildi.

Dövlət müstəqilliyinin qazanıldığı ilk illərdə muxtar respublika əhalisinin ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşməsi və dahi liderin uzaqgörən siyasəti nəticəsində Naxçıvan düşmən hücumlarından qorundu. Xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkədə ictimai-siyasi sabitlik təmin edildi, ordu quruculuğunda genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanıldı, hərbi təhsil sistemi yenidən quruldu.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dünyanın ən güclü 50 ordusu sırasında yer alan 100 yaşlı Azərbaycan Ordusunun həm silah arsenalı, həm də maddi-texniki bazası genişlənir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu daha da yüksəlir. Ordumuzun bu gücə qovuşmasında xalq-ordu birliyinin mühüm rolu var. Bu gün xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması nəticəsində məğlubedilməzliyi və qələbə əzmi daha da artan Azərbaycan Ordusunun şəxsi heyəti bütün döyüş tapşırıqlarının öhdəsindən layiqincə gələrək işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir.

Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, birlik əsasında Əlahiddə Ümumqoşun Ordu yaradıldı.

Bu gün Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. 2014-cü il aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirində iştirak edən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordunun yaradılması barədə danışarkən deyib: "Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2017-ci il yanvarın 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsindəki 900 yerlik əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin açılışında iştirak edib, burada şəraitlə və silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olub. Həmin gün Naxçıvan şəhər ictimaiyyəti ilə görüşən zaman ölkə başçısı deyib: "Bu gün, eyni zamanda, hərbi hissədə olarkən bir daha gördüm ki, Naxçıvanın hərbi potensialı da lazımi səviyyədədir. Biz bu istiqamətdə də böyük iş aparmışıq və bu gün də aparırıq. Bu gün Naxçıvan ordusu istənilən vəzifəni icra etməyə hazırdır, öz sərhədlərini qoruyur və siz burada düşmənlə üz-üzə yaşayırsınız, cəsarətlə yaşayırsınız, rəşadət göstərirsiniz və göstərmisiniz. 1990-cı illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar öz diyarını qoruya bildilər, düşməni yerinə oturtdular. Bu gün Naxçıvanın hərbi potensialı ən yüksək səviyyədədir."

Müdafiə qüdrəti durmadan artan Naxçıvan Muxtar Respublikasında yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə keçmiş SSRİ və indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir. Ali Məclis sədrinin tez-tez hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin xidmət şəraiti ilə maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə bərabər, hərbi qulluqçularda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində yaradılan şəraitlə, silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olması və yeni hərbi xəstəxananın açılışında iştirak etməsi dövlət qayğısını hər zaman üzərində hiss edən hərbi qulluqçularımızda böyük ruh yüksəkliyi yaradıb.

Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi və hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu Günnüt əməliyyatı Azərbaycan əsgərinin rəşadət əzmini bir daha bütün dünyaya nümayiş etdirdi. Belə ki, 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi və həmin ərazilər ordumuzun nəzarəti altına keçdi.

İyunun 26-da Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ilə bağlı keçirilən möhtəşəm paradda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordumuzun digər uğurları ilə yanaşı, Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi Günnüt əməliyyatı haqqında da dəyərli fikirlər səsləndirib, bu əməliyyatı peşəkarlıq və məharətlə həyata keçirilən uğur adlandırıb: "Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur".

2017-ci ilin hazırlıq planında göstərilmiş tədbirlərin tam yerinə yetirilməsi nəticəsində Silahlı Qüvvələrdə döyüş hazırlığı, intizamın nəticələrinə görə Əlahiddə Ümumqoşun Ordu birinci yeri tutub. 2018-ci tədris ilində də Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələri döyüş hazırlığı planına uyğun olaraq qarşıya qoyulmuş bütün tapşırıqları uğurla yerinə yetiriblər. Keçirilən təlimlərdə qarşıya qoyulmuş məqsədlərə nail olunması qeyd olunanlara əyani misaldır. Təlimlərdə şəxsi heyətin yüksək döyüş hazırlığına malik olması nəticəsində qarşıya qoyulmuş tapşırıqlar ən çətin hava və relyef şəraitində uğurla yerinə yetirilir. Əsas güc uzlaşmış fəaliyyətin təkmilləşdirilməsinə yönəldilərək döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şərtlərlə praktik fəaliyyətlər icra edilir. Bu baxımdan Azərbaycan və Türkiyə Respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq keçirilən birgə döyüş atışlı taktiki təlimlər xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanda və Türkiyə Respublikasının Qars şəhərində keçirilən döyüş atışlı birgə taktiki təlimlər hər iki qardaş ölkənin hərbi qüdrətindən və şəxsi heyətlərimizin yüksək vətənpərvərliyindən xəbər verir.

Bu il oktyabrın 30-da keçirilmiş Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimində xüsusi təyinatlılarımız tapşırıqları yüksək peşəkarlıqla icra etdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi təlimi izləyiblər, təlimin təşkilini və keçirilməsini yüksək qiymətləndiriblər.

Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində son illər yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ordu, birləşmə və hissələrdə əsgər yataqxanaları, Əsgəri-Məişət Kompleksləri, Təlim-Tədris Mərkəzləri, qərargah binaları, xəstəxanalar tikilib, sıra meydanı, idman şəhərcikləri salınıb. Həyata keçirilən tədbirlər dislokasiya yerləri daimi yaşayış məntəqələri olan hərbi hissələrlə bərabər, ön xətdə yerləşən hissə və bölmələri də əhatə edir. Hətta hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu Günnüt əməliyyatı nəticəsində işğaldan azad edilmiş yeni mövqelərdə qısa zaman kəsiyində inşa olunan əsgəri-məişət kompleksləri ön xətdə xidmətin rahat və etibarlı təşkilinə müsbət təsir göstərir.

Naxçıvan Muxtar Respublikasında Vətənə sədaqətli, peşəkar hərbçi kadrların yetişdirilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin diqqət və qayğısı ilə Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilərək kursantlar üçün müasir tədris, rahat məişət və yaşayış şəraiti yaradılıb. Artıq Hərbi lisey ölkəmizdə gələcəyin peşəkar zabitlərinin yetişdirilməsinə mühüm töhfə verən mötəbər təhsil ocağıdır. Hazırda Heydər Əliyev adına Hərbi Liseyin məzunları Azərbaycan Ordusunda öz xidməti vəzifələrini şərəflə yerinə yetirirlər. Naxçıvan Muxtar Respublikasında hərb işinə verilən önəmin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Orduda xidmətə yenicə başlamış gənclərimiz Hərbi anda, Vətənə və xalqa sadiq peşəkar əsgərlər kimi yetişdirilir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir, zabit və qadın hərbi qulluqçu hazırlığı kursları, eləcə də zabit heyətinin təkmilləşdirilməsi kursu uğurla təşkil olunaraq keçirilir.

Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Hər bir vətəndaşımız da rahat, sabitlik şəraitində yaşayır və Azərbaycan əsgərinə güvənərək öz gündəlik fəaliyyəti ilə məşğul olur. Xalqımızın ordumuzu güvənc yeri bilməsi qəlbi Vətən eşqi ilə döyünən vətəndaşlarımızın əsgərlərimizə sevgi və ehtiramının göstəricisidir. Göründüyü kimi, əldə olunan uğurların, qazanılan zəfərlərin arxasında xalq-ordu birliyi dayanır. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında Ulu Öndərin xatirəsinə həsr olunmuş dəyirmi masa keçirildi

*Silahlı Qüvvələrin Hərbi Akademiyasında ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümünə həsr olunmuş dəyirmi masa keçirildi. Tədbirdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının zabitləri, professor-müəllim heyəti və dinləyiciləri iştirak edirdilər.*



Ümummilli liderimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Adyunktura və Elm şöbəsinin dosenti polkovnik Atamalı Şahbazov ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə gördüyü işlər barədə məlumat verdi. "XX əsrin sonlarında Azərbaycanda çətin geosiyasi vəziyyət vardı. Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev ağır missiyanı öz üzərinə götürərək ölkəmizi böyük təhlükələrdən qorudu. XX yüzillikdə qazanılan ikinci müstəqillik onun sayəsində qorunub saxlanıldı. 1993-cü ildə hakimiyyətə gəlişi ilə ölkəmiz qısa müddətdə xeyli uğurlar qazandı. Bu gün ölkəmizdə siyasi, elmi, hərbi, mədəni sahələrin inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Ölkəmizin quruculuq işlərində öz dəsti xətti və imzası olan Ümummilli Liderimiz müstəqil Azərbaycan Respublikasının bugünkü inkişaf səviyyəsinə çatması üçün misilsiz işlər görüb. Bu gün Heydər Əliyev siyasətinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir".

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin dosenti, tarix elmləri doktoru ehtiyatda olan polkovnik Mehman Süleymanov respublika rəhbərliyinə qayıdandan sonra Heydər Əliyevin öz üzərinə götürdüyü xilaskarlıq missiyasından və prezident olduğu dövrdə aparılan islahatlardan danışdı. "90-cı illərin əvvəllərində yeni müstəqillik qazanmış Azərbaycanı təhlükələrdən qoruya biləcək lider lazım idi. Azərbaycanda xaotik vəziyyət və parçalanmaq təhlükəsi yaranmışdı. Son dərəcə mürəkkəb bir vəziyyətdə rəhbərliyə dəvət olunan Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorudu və ölkəni parçalanmaqdan xilas etdi, xalqını sonsuz fəlakətlərdən qurtardı. Dahi rəhbərin Sovet dönəmi zamanı rəhbərlikdə olduğu dövrlərdə Azərbaycan 15 respublika içində öz inkişafı ilə seçilirdi. Bunun məntiqli davamı idi ki, hakimiyyətə gəldikdən sonra aparılan uğurlu islahatlar nəticəsində Azərbaycanda dinamik inkişaf mərhələsi başladı. Kənd təsərrüfatında, hərb sahəsində, xarici və daxili siyasətdə xeyli uğurlar əldə edildi". Mehman Süleymanov, həmçinin qeyd etdi ki, ermənilərin Naxçıvanla bağlı məkrli niyyətlərinin qarşısı məhz Ümummilli Liderimiz tərəfindən alındı. "Ağır blokada şəraitində yerləşən Naxçıvan əhalisi ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşdi. Təhlükələr aradan qaldırıldı. Bu gün Naxçıvan durmadan gözəlləşir və inkişaf edir. Və bu inkişafın memarı Ümummilli Liderimizdir".

Akademiyanın Adyunktura və Elm şöbəsinin professoru, tarix elmləri doktoru Nurulla Əliyev Ulu Öndərin Səməd Vurğunun "Azərbaycan" şeirini necə ürəklə söylədiyini bildirərək qeyd etdi ki, "Azərbaycan" şeirini bu cür emosiya ilə yalnız Vətəninə, millətinə bağlı olan bir insan deyə bilər. O bildirdi ki, görkəmli siyasi xadim Heydər Əliyev gördüyü işlərdə iki şeyi önəmli sayıb. "Dövlətçilik prinsiplərinə sədaqət" və "Azərbaycançılıq ideyasını yaşatmaq və nəsildən-nəslə ötürmək". N.Əliyev Əbədiyaşar Komandanın ordu quruculuğunda gördüyü işlərdən də danışdı. "Heydər Əliyev Sovet dönəmində rəhbərlikdə olduğu dövrlərdə hərbi təhsil müəssisələrində azərbaycanlı hərbi qulluqçuların azlıq təşkil etməsi ilə heç vaxt barışmırdı. Məhz Ulu Öndərin təşəbbüsü ilə ötən əsrin 70-ci illərində Bakıda ilk ibtidai hərbi məktəb açıldı. Hərbi ibtidai məktəbin yaradılmasına Sovet rəhbərliyinin bəzi saxta patriotları etiraz etsələr də, uzaqgörən dahi siyasətçimiz Heydər Əliyev bu məsələni həll edərək Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail oldu. Bu gün Hərbi liseydə təhsil almış xeyli sayda peşəkar zabitlərimiz var. Çətin dövründə xalqının yanında olan dahi rəhbər Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra da ordu quruculuğu sahəsində mühüm işlərə imza atdı. Bu gün zamanın müasir tələblərinə əsasən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin başlatdığı siyasəti uğurla davam etdirir. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, hərbi qulluqçuların sosial rifahının yüksəlməsinə yönəlik işlər görülür, şəxsi heyətin məişət şəraiti yaxşılaşır".

Tədbirdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının zabitlərindən polkovniklər Arif Həsənov, Nəbi Hacıyev, professor-müəllim heyətindən Tahir Pənahov, Ramiz Həsənov, Aqil Şahmuradov, Vüqar Məmmədzadə çıxış edərək Ümummilli Liderin elmi, siyasi, iqtisadi, mədəni və digər sahələrdə gördüyü işlərdən söz açdılar.

Dəyirmi masada Müdafiə Nazirliyinin nəzdində Sənədli və Tədris Filmləri Kinostudiyasının ümummilli lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən videoçarxı nümayiş etdirildi.

Sonda tədbir iştirakçılarına Silahlı Qüvvələrin Hərbi Akademiyasının professor-müəllim heyətinin müəllifi olduğu və ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunmuş kitab təqdim olundu.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə "Açıq qapı" günü keçiriləcək

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, dekabrın 29-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü təşkil olunacaq.

Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olacaq, xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkəcəklər.

"Açıq qapı" günü çərçivəsində komandanlıqla valideynlərin görüşlərində hərbi qulluqçuların xidməti ilə bağlı onları maraqlandıran məsələlər müzakirə ediləcək və sualları cavablandırılacaq.

Bayram günü münasibətilə şəxsi heyət üçün mədəni-kütləvi tədbirlər keçiriləcək.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***18 dekabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Namirli, Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ombudsman aparatının nümayəndələri hərbi təhsil müəssisələrində olublar



*Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının nümayəndələri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olublar.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və böyük məsləhətçi Murad Babayev kursantların sosial-məişət şəraiti ilə tanış olub, yeməkxanaların baxış keçirib, ərzaqların saxlanma anbarlarına baş çəkiblər. Yataq yerləri və mövsümi geyimlərə baxış keçirildikdən sonra qonaqlar kursantlarla görüşərək onların təhsilləri ilə də maraqlanıblar.

Ombudsman aparatının nümayəndələri kitabxanalara da baş çəkərək kursantların daha da yaxşı təhsil almaları, asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış şəraitlə tanış olublar.

Sonda nümayəndələr təhsil ocaqlarının tibb məntəqələri və tədris otaqlarına da baxış keçiriblər.



# Hərbi Akademiyada ingilis dili kursunun növbəti buraxılışı olub

*Silahlı Qüvvələrin Hərbi Akademiyasının ingilis dili kursunun növbəti buraxılışı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edənlər məzunları təbrik edib və onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonda kursu bitirənlərə diplom və sertifikatlar təqdim olunub.

Tibb xidməti

# Sağlamlıq diqqət mərkəzində



*Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş qabiliyyətinin, mənəvi-psixoloji vəziyyətinin yüksək olması istiqamətində diqqət mərkəzində saxlanılan vacib məsələlərdən biri də əsgərlərimizin sağlamlığıdır. Hərbi qulluqçuların sağlamlığının keşiyində dayanmaq isə tibb işçilərinin başlıca vəzifəsidir. Ordumuzun bütün bölmələrində müasir tibbi avadanlıqlarla təchiz olunmuş hospital və tibb məntəqələri fəaliyyət göstərir.*

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin sağlamlığı keşiyində dayanan tibb işçilərinin fəaliyyəti və tibb məntəqəsi ilə tanış olduq. Gizir Vüsal Hüseynov şəxsi heyətə göstərilən diqqət və qayğıdan söz açaraq bildirdi ki, yaxşı həkim, yaxşı müəllim və yaxud da yaxşı hərbi qulluqçu olmaq üçün işinin mütəxəssisi olmaq gərəkdir. "Yaxşı tibb işçisi olmağın bir neçə qızıl qaydaları var: əvvəla gərək tibb işçisi savadlı, məsuliyyətli, düzgün, humanist və ən başlıcası, əsl insani keyfiyyətləri özündə birləşdirən bir şəxs olsun. Onun mütəxəssis kimi formalaşması üçün uzun müddət praktik təcrübəyə malik olması vacibdir. Hər bir tibb işçisi eyni zamanda, yaxşı psixoloq olmalıdır. Müxtəlif düşüncəli, xarakterli xəstələr müxtəlif problemlərlə həkimə müraciət edirlər. Həkim xəstənin xarakterinə və problemlərinə uyğun danışmağı bacarmalıdır. Bəzən emosional xəstələr olur ki, onlarla da dil tapmalı oluruq. Yaxşı həkim Vətəninə və xalqına xidmət etməyi qarşısına məqsəd qoymalıdır. Vətənimizin keşiyində dayanan mərd əsgərlərimizin keşiyində dayandığım üçün qürurluyam. Bu gün mən iki müqəddəs peşənin sahibiyəm. Həm Vətənimizi qoruyur, həm də şəxsi heyətimizin sağlamlığının qayğısına qalıram. Hər zaman çalışacağam ki, xidmətimlə əsgərlərimizin hörmət, etimad və sevgisini qazanım".

"Ümumiyyətlə, tibb işçisi xəstə ilə mehriban davranmalı, onun inamını qazanmağı bacarmalıdır. Həkimlik elə bir işdir ki, şəxsi həyatında da olan problemi belə, xəstəyə hiss etdirməməlisən. Xəstələri gülərüz qarşılayıb, müayinə edib, müalicə yazmalısan. Xalqın müqəddəs saydığı, inanıb etibar etdiyi həkim adını daşımaq olduqca şərəfli və məsuliyyətlidir. Həkimlik sənətinin özünəməxsus bir sıra qayda-qanunları vardır. Həkim öz davranışı, şəxsiyyəti, təfəkkürü, dünyagörüşü və insanlarla münasibəti ilə başqalarından fərqlənməli, özünəinam yaratmağı bacarmalıdır. Bütün bunlar həkimlik etikasının əsasını təşkil edir. Biz tibb işçiləri xəstəni müayinə və müalicə edərkən bu prinsipi həmişə rəhbər tutmalıyıq. Xəstənin xasiyyətini, əsəbi vəziyyətini, mədəni inkişaf səviyyəsini, xəstəliyi doğuran obyektiv və subyektiv amilləri diqqətlə öyrənməli və nəzərə almalıyıq. Tibb işçisinin xoş sözü, mehribanlığı, həssaslığı, qayğıkeşliyi xəstənin vəziyyətinə, bir qayda olaraq, müsbət təsir göstərir", - deyə feldşer gizir Vüsal Hüseynov bildirdi.

Tibb bacısı kiçik çavuş Əfsanə Tağıyeva qeyd etdi ki, həkimlik çox nəcib, hamıya gərək olan peşədir. "Mən başa düşürəm ki, bu peşə nəcib olduğu qədər məsuliyyətlidir. Söhbət insan taleyindən gedir. Hansısa bir səhv, ehtiyatsızlıq böyük faciəyə səbəb ola bilər. Buna görə də həkim elmin sirlərinə mükəmməl yiyələnməli, müasir tibb cihazları ilə işləməyi bacarmalı, ən əsası da öz məsuliyyətini heç vaxt yaddan çıxarmamalıdır. Hesab edirəm ki, dünyada həkimlik kimi insan həyatına lazım olan ikinci bir peşə yoxdur. Həkim, təkcə insanları müalicə etmək üçün yox, həm də xəstəliklərin qarşısını almaq,



geniş profilaktik iş aparmaq üçündür. Biz də əsgərlərimizi müalicə etməklə yanaşı, hər həftə bölmələrdə profilaktik tədbirlər görür, xəstəliklərdən qorunmağın yolları haqqında onları təlimatlandırırıq. Vətən qoruyucularının sağlamlığı bizə əmanət edilir. Onlara xidmət etməkdən mənəvi həzz alırıq. Vətən uğrunda istənilən an canını qurban verməyə hazır olan igid oğullarımıza göstərdiyimiz qayğıdan qürur duyur, fəxr edirik".

Həkimin xoş sözü, mehribanlığı, həssaslığı, qayğıkeşliyi xəstənin vəziyyətinə müsbət təsir göstərdiyini vurğulayan tibb bacısı onu da bildirdi ki, xəstələrə fərdi yanaşmaq, onlara hörmət və ehtiramla xidmət etmək bizim müqəddəs borcumuzdur.

Bakı şəhərindən hərbi xidmətə çağırılan əsgər Fərid Məmmədov tibb məntəqəsində aldığı müalicədən razı qaldığını bildirdi. "Həkimlərimizin bizlərə göstərdiyi diqqət və qayğıdan çox razıyıq. İstənilən an tibb məntəqəsinə səhhətimizlə bağlı müraciət etdikdə bizlərə yüksək səviyyədə baxır, eyni zamanda mehribanlıq, qayğıkeşlik göstərirlər. Belə yüksək səviyyədə göstərilən qayğı qarşısında üzərimizə düşən vəzifə xidmətimizi düzgün təşkil edərək, həsrətini çəkdiyimiz torpaqlarımızı azad etməkdir."

Həkimlərimizin xoş sözləri, işlərində məsuliyyətli olmaqları, Vətənimizi, xalqımızı və millətimizi qoruyan mərd əsgərlərimizin keşiyində dayandıqlarından qürur hissi keçirdiklərini gördükcə bir daha əmin olduq ki, əsgərlərimizin sağlamlığı əmin əllərdədir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə və ABŞ prezidentləri arasında telefon danışığı olub



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə ABŞ Prezidenti Donald Tramp arasında telefon danışığı olub.

Prezidentlər ikitərəfli münasibətlər, təhlükəsizlik, terror və Suriya böhranı ilə bağlı son vəziyyəti müzakirə ediblər. Türkiyənin dövlət başçısı PKK, PYD və YPG terror təşkilatları ilə bağlı narahatlığını Prezident Donald Trampın diqqətinə çatdırıb.

Tərəflər Suriya məsələsini daha sıx şəkildə əlaqələndirmək barədə razılaşıblar.

## İraqın şimalında daha 10 terrorçu məhv edilib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalındakı terror düşərgələrinə növbəti dəfə zərbələr endiriblər.

Gara və Hakurk bölgəsində dəqiq hədəflərin vurulması nəticəsində daha 10 terrorçu məhv edilib. Bildirilir ki, dekabrın 15-də və 16-da keçirilən bu antiterror əməliyyatında məhv edilən terrorçular terror hazırlığında olublar.

## Suriyada törədilən partlayış nəticəsində 7 nəfər ölüb



Suriyanın Hələb əyalətinin Afrin şəhərinin mərkəzindəki bazarda partlayış törədilib.

Minalanmış avtomobilin partladılması nəticəsində 7 nəfər həlak olub, azı 20 nəfər xəsarət alıb.

## Ukraynada SU-27 hərbi təyyarəsi qəzaya uğrayıb



Ukraynanın Jitomir vilayətində SU-27 hərbi təyyarəsi qəzaya uğrayıb.

Bu barədə Ukrayna Silahlı Qüvvələri Baş Qərargahı məlumat yayıb. Qəza nəticəsində pilot həlak olub. Hadisənin başvermə səbəbi araşdırılır.

## NATO-nun baş katibi Kosovo ordusunun yaradılmasına qarşı çıxıb



NATO-nun Baş katibi Yens Stoltenberq xüsusi bəyanatında Kosovo hakimiyyətinin milli ordu yaratmaq istiqamətində addımlarının təəssüf doğurduğunu deyib.

Dekabrın 14-də Kosovoda təhlükəsizlik qüvvələrinin orduya çevrilməsi prosesinə təkan verən üç qanun qəbul olunub.

"Təəssüf edirəm ki, NATO-nun narahatlığının əksinə olaraq belə qərar verilib. Kosovonun təhlükəsizlik qüvvələrini orduya çevirmək barədə qərar verməyə prinsipcə ixtiyarı çatsa da, biz pis vaxt seçildiyini aydın şəkildə göstərmişik", - NATO baş katibinin Şimali Atlantika Alyansının mətbuat xidməti tərəfindən Brüsseldə yayımlanan bəyanatında belə deyilir.

Kosovo parlamentinin cümə günü qəbul etdiyi qanun layihələri təhlükəsizlik qüvvələrinin sayının iki dəfə artırılaraq 5 min nəfərlik tam həcmli peşəkar orduya çevrilməsini nəzərdə tutur.

## Pakistanda terror aktı: təhlükəsizlik qüvvələrinin 6 əməkdaşı həlak olub




Pakistanın Bəlucistan əyalətinin Keç dairəsində terrorçuların mühafizə dəstəsinə hücumu nəticəsində təhlükəsizlik qüvvələrinin 6 əməkdaşı həlak olub.

Hücum zamanı 14 əməkdaş yaralanıb.

Qanlı hadisə ilə bağlı məsuliyyəti hələ ki, heç bir qruplaşma öz üzərinə götürməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi hissədə tədbir keçirilib




*Müdafiə Nazirliyi və Nizami rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "N" hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində tədbir keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, şənlikdə çıxış edənlər həmrəylik gününün yaranma tarixi, əhəmiyyəti, respublikamızın inkişafının möhkəm təməlini qoyan ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətləri və ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti nəticəsində bütün sahələrdə tərəqqinin təmin edilməsindən söz açıblar.

Bakı şəhər Nizami rayon Mədəniyyət Mərkəzinin əməkdaşları şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə əsgərlər qarşısında musiqili-konsert proqramı ilə çıxış ediblər.

Tədbirdə Bakı şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən hərbi hissəyə 100 ədəd kitab hədiyyə edilib. Gəncə Qarnizonu Zabitlər Evinin yaradıcı kollektivi və Gəncə Dövlət Filarmoniyasının solistləri tərəfindən ədəbi-bədii kompozisiyalar təqdim olunub.

Sonda tədbir iştirakçıları əsgərlərin məişət şəraiti ilə tanış olublar.



*Ordu və cəmiyyət*

# Əsgərə məktub gəlir

*Məktub ünsiyyət vasitəsidi. Uzaqdan-uzağa ünsiyyət həm də duyğusaldır. Məktub yazanın ürək sözüdü, oxuyana arzusunu, istəyini ifadə edir...*

Əsgərə məktub gəlir. Əzizləri yazır, tay-tuşları yazır, bu məktublarda bəzən bir sevda dil açır: "Gözləyirəm"...

Hər məktubda inam olur, güvənc ifadə edilir; cəmiyyət Azərbaycan əsgərinə inanır, güvənir. Hər məktub eyni qürurun söz təsdiqidi...

Tanımadığı əsgərə analar da, bacılar da məktub yazır, məktəblilər də. Belə məktubların əsgərə çatdırılması missiyasını "Asan xidmət" yerinə yetirir...

Belə bir tədbir Hərbi Dəniz Qüvvələrində keçirildi. Tərlan Ağcayevin rəhbərliyi ilə 1 saylı "Asan xidmət"in bir qrup işçisi əsgərə yazılan məktubu matroslara çatdırdı...

Tərlan Ağcayev qeyd etdi ki, 2016-cı ilin aprelində cəmiyyət daha coşqunluqla təsdiqlədi ki, orduya inanır, ordu ilə "nəfəs alır", həmişə ordunun dayağıdır. Yerinə yetirdiyimiz bu missiya da ordu-cəmiyyət münasibətlərini daha da möhkəmləndirir. Ordumuz güclüdür. Cəmiyyətdən mənəvi dəstək hiss edən əsgərin mənəvi-psixoloji hazırlığı daha da mətinləşir. "Əsgərə məktub" təşəbbüsü bilavasitə cəmiyyətdən gəlir. Biz onu reallaşdırır, yazılmış məktubları ünvanına - məktub yazanın tanımadığı, ancaq doğması, əzizi bildiyi əsgərə çatdırırıq. Həm də hər iki tərəfə könül xoşluğu gətirən missiyanı başa çatdırmaqla vətəndaşlıq borcumuzu yerinə yetiririk...

Məktublar matroslara çatdırıldı...

Matroslara baxırdım. Onların çöhrəsində hiss edilən məmnunluq deyirdi ki, biz bu güvəncə, bu etimada görə daha məsuliyyətlə xidmət edəcəyik.



Məktub matrosu duyğulandırmışdı. Tanımadığı ana, tanımadığı məktəbli ona əzizi kimi müraciət edir. "Əziz oğlum", "Əziz qardaşım" kimi xitablar, təbii ki, matrosun ürəyini təlatümə gətirəcəkdi, belə müraciətlər onun könül dünyasının səviyyəsinə dönəcəkdi. Dönmüşdü də. Asudə vaxtlarında cavab yazacaqdı. Yazacaqdı ki, biz hərbi xidmətdəyik, Vətən qarşısında borcumuzu ödəyirik. Ali Baş Komandan əmr verərsə döyüşəcəyik, torpaqlarımızı işğaldan azad edəcəyik, sizləri intizardan qurtaracağıq. Yazacaqdı ki, hər birimiz Böyük Qələbənin əsgəri olmaq amalıyla xidmət edirik. Mənə oğlum deyənləri anam bilirəm, qardaş deyənləri qardaşım.

"Əsgərə məktub" layihəsi bu baxımdan olduqca dəyərli layihədir - insanları eyni amal ətrafında sıx birləşdirir. Hamı Vətənə əsl vətəndaş olmağın gərəkliyini daha əhatəli dərk edir. Hər vətəndaş qəlbən, ruhən əsgərlərin, matrosların sırasında olduğunu bildirirsə, bu, birlik deməkdir, bu, azərbaycançılıq deməkdir, bu, Vətənə başqa formada xidmət deməkdir...

Hərbi Dəniz Qüvvələrində təşkil edilən "Əsgərə məktub" layihəsi məzmunu etibarilə əsl vətənpərvərlikdir...

Əsgərə məktub gəlir. Onu "Asan xidmət" reallaşdırır...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal olunmuş Madagiz yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən çavuş Artuş Petrosyan təhlükəsizlik qaydalarını pozduğuna görə bel fəqərələrinin sınığı diaqnozu ilə hərbi hospitala təxliyə edilib.

Baş sürücü-mexanik A.Petrosyan təlim mərkəzində praktiki atışlar zamanı ağır xəsarət alıb. Həkimlər hərbi qulluqçunun vəziyyətinin ciddi olduğunu bildiriblər.

Davo adlı həkimin dediyinə görə, 2017-ci ilin yanvarından müqaviləli xidmətdə olan və Gorus hərbi komissarlığından xidmətə çağırılan A.Petrosyan ömürlük şikəst ola bilər.

Hadisə şahidlərinin, həmçinin səhlənkarlığa yol verən, hələlik soyadları açıqlanmayan Erik və Harut adlı zabitlərin artıq istintaqa cəlb olunduğu da bildirilir.

* * *

İşğal olunmuş Madagiz yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində bir hərbi qulluqçu xidmətin çətinliyinə dözməyərək özünə qəsd edib.

Üçüncü taborun əsgəri Şavarş Qalacyan xidmətin ağırlığına və məruz qaldığı təhqirlərə dözməyərək ona təhkim olunmuş avtomat silahdan ataş açaraq özünü vurub.

Hələlik öldüyü, yaxud sağ olduğu gizlədilən hərbçi barədə məlumatı Allahverdiyan soyadlı zabit də təsdiq edib.

Hadisə hərbi polis tərəfindən araşdırılır.

* * *

İşğal olunmuş ərazilərimizdə yerləşdirilən Ermənistan ordusunun bölmələrində qanunsuzluqlar, nizamnamədənkənar münasibətlər və digər səbəblərdən fərarilik halları baş verməkdə davam edir.

Bu günlərdə 6-cı dağatıcı alayının daha bir hərbi qulluqçusu Artyom Bağdasaryan xidmət yerini özbaşına tərk edib.

Hadisə barədə hərbi polisə məlumat verilib. Hazırda fərarilik edən A.Bağdasaryanın axtarışı davam edir.

* * *

İşğal altında olan Xocalı yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən hərbi qulluqçu hələlik məlum olmayan səbəbdən yaralanıb.

Əsgər Narek Asaturyan güllə yarası ilə hərbi tibb məntəqəsinə yerləşdirilib. Növbətçi hərbi həkim A.Mikolyan hərbi qulluqçunun vəziyyətinin orta ağır olduğunu bildirib.

Baş vermiş hadisə hüquqmühafizə orqanlarından gizlədilir.

* * *

İşğal altında olan Madagiz yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun bölmələrindən birində xidmət edən iki hərbi qulluqçu buraxılışda olarkən oğurluq ediblər.

Hərbi qulluqçular Artur Ohanyan və Qaqik Ter-Qazaryan mülki obyektlərdən oğurluq etdikləri üçün saxlanılıblar. Onların hərbçi olduqları məlum olduqdan sonra dərhal hərbi polisə məlumat verilib.

Faktla bağlı istintaq aparılır. Adları çəkilən şəxslərin başqa oğurluq hadisələrində əllərinin olub-olmaması müəyyənləşdirilir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Kapitan Hüseynov Toğrul Kinyaz oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Fuad CƏFƏROV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 1031 Nüsxə 3525 |